# Səid Rüstəmovun mahnı yaradıcılığı

Görkəmli bəstəkarlarımız Üzeyir Hacıbəyov və Müslüm Maqomayev ənənələrinə əsaslanaraq, S.Rüstəmov özünün folklor yaradıcılığına yaxın olan mahnı üslubunu yaratmışdır. Bu barədə S.Rüstəmov haqqında yazılmış məqalələrdən birində oxuyuruq: "S.Rüstəmov öz əsərlərini yaradıcılıq yenilikləri ilə zənginləşdirən və xalq mahnı janrını mükəmməlləşdirən sovet mahnı bəstəkarlarının ənənələrini davam etdirərək Azərbaycanın folklor musiqisinə yeni nəfəs, yeni məzmun gətirmiş və xalq mahnılarımızı zənginləşdirərək, daha da təravətləndirmişdir."*(İmruz Əfəndiyeva, "Sovet mahnı ustadı haqqında söz" məqaləsi, "Bakı" qəzeti, 11 may 1977-ci il.).*

Təsadüfi deyil ki, bəstəkar iri həcmli əsərlərinə görə deyil, məhz mahnılarına görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Bu, dörd mahnıdır ki, onların hər biri həyatımızın müxtəlif cəhətlərini əks etdirir. Məsələn, "Sürəyya" zəhmət adamına-qabaqcıl pambıqçıya, "Mən sülhə səs verirəm" mahnısı sülh uğrunda mübarizəyə, "Sumqayıt" yeni yaradılmış sənaye şəhərinə, "Komsomol" isə rəşadətli gənclərimiz olan o dövrün komsomolçularına həsr olunmuşdur.

Bəstəkarın mahnılarının mövzu dairəsi genişdir. Onun mahnıları rəngarəng, dövrünün tələblərinə cavab verən əsərlərdir. Doğrudan da, S.Rüstəmov mahnılarında xalqımızı sülh uğrunda mübarizəyə çağırır, əmək adamlarının zəhmətkeşliyindən, insan hisslərinin tərənnümündən, doğma vətən torpağından bəhs edir.

S.Rüstəmovun xalq musiqisinə bağlılığı mahnı yaradıcılığında da özünü göstərir. Onun mahnılarında xalq mahnılarına yaxınlıq hiss olunur. Təsadüfi deyil ki, bəstəkarın mahnılarını bəzən xalq mahnılarından seçmək çətin olur. Lakin bununla yanaşı, bu mahnılar öz musiqisinin xarakterinə görə heç də bir-birlərinə bənzəmir. Bir cəhəti də qeyd etmək lazımdır ki, S.Rüstəmovun mahnıları yadda qalandır. Onlar melodiyasının şirinliyi, sadəliyi, ahənqliyi, axıcılığı, formasının aydınlığı, orijinal ritmilə seçilir.

Bəstəkarın ilk mahnıları 1930-cu illərin sonu 1940-cı illərin əvvəllərində yazılmışdır. Bunlara əsasən teatr tamaşalarına yazılmış mahnılar aiddir. Nümunə kimi, "İntizar" pyesindən (M.Hüseyn və İ.Əfəndiyev) eyniadlı mahnını göstərə bilərik. Mahnıda gənc qadının ayrılıq hissləri, xatirələri əks olunur. Mahnının əsasını melodiya təşkil edir. Melodiyanın gözəlliyində, axıcılığında dərin hissləri görə bilərik. Burada lirik hisslərin açılması tədricən baş verir və gənc qadının fikirləri və daxili aləminin açılması ilə şərh olunur. S.Rüstəmov musiqisinin özünəməxsus gözəlliyi bu mahnını tezliklə xalqa sevdirdi.

S.Rüstəmovun mahnı janrında ən gözəl əsərləri müharibədən sonraki illərə aid edilir. Artıq mahnı janrı bəstəkarın yaradıcılığında aparıcı rol oynayır. Mahnılarında janr müxtəlifliyi nəzərə çarpır, müasir mövzuya müraciət edir.

Onu da xatırladaq ki, təkcə "Sürəyya", "Sumqayıt", "Komsomol", "Mən sülhə səs verirəm" mahnılarına görə o, 1951-ci isdə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

"Sürəyya" mahnısı qabaqcıl pambıqçı Sürəyya Kərimovaya həsr olunmuşdur. Sözləri Zeynal Cabbarzadəyə məxsusdur. Mahnıda Sürəyyanın pambıq tarlasında həvəslə işləməsindən, yüksək əməyindən söz açılır.

Mahnının melodiyası dinləyicidə şən əhval-ruhiyyə yaradır. Bu da melodiyanın ritmik olması, xalq rəqs havalarının xüsusiyyətlərini özündə cəmləşdirməsindən irəli gəlir. Burada musiqişünas E.Abasovanın bir fikrini qeyd etməliyik: "Bəstəkar bu mahnını rəqs tərzində yazmışdır. Axı sevinc hissləri ifadə edən bir çox Azərbaycan melodiyasının ən mühüm xüsusiyyətlərindən biri rəqsvarilik, oynaqlıqdır".(E.Abbasova "Səid Rüstəmov". Bakı-1973, səh 39.)

1948-ci ildə respublikamızda ən yaxşı kütləvi mahnılar müsabiqəsi keçirildi. Müsabiqədə "Sürəyya" mahnısı mükafat aldı. Şair Zeynal Cabbarzadə öz xatirələrində bu barədə yazır: Bu müsabiqədə iştirak etməyi böyük ehtiyatla qərara aldım. Çünki məndən yaşlı və təcrübəli şairlər də iştirak edə bilərdilər. Hər halda qərarımın üstündə durdum və "Sürəyya" adlı şerimi münsiflər heyyətinə göndərdim. Aradan bir neçə gün keçmiş evimə zəng vurdular. Danışanın kim olduğunu soruşdum. Səid Rüstəmov idi:

Zeynal, - dedi. -Təbrik edirəm "Sürəyya bizə mükafat qazandırıb !"*(Zeynal Cabbarzadə "Bəstəkarımız, müəllimimiz" məqaləsi, "Ədəbiyyat və incəsənət" qəzeti, 27 may 1967-ci il.)*

Səid Rüstəmovun mahnıları respublikamızdan çox-çox uzaqlarda da tanınır. "Sürəyya" da belə mahnılardandır. Bütün dünyada tanınmış müğənni Rəşid Behbudov 1961-ci ildə Hindistanda qastrol səfərində olarkən "Sürəyya" mahnısı hindlilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Həmin ildə Hindistanda səfərdə olan mərhum bəstəkarımız, Azərbaycanın xalq artisti Tofiq Quliyev öz məqaləsində yazmışdır: "Hindlilər deyirdilər ki, Rəşidin oxuduğu bir mahnı onların daha çox xoşuna gəlmişdir. Lakin təəssüf ki, nə mahnının adı, nə də bəstəkarı yadlarında deyildi. Mən Azərbaycan bəstəkarlarından bir neçəsinin adını çəkdim, mahnılarını sadaladım. Nəhayət, yenə də, "Sürayya" mahnısını yada saldım. Hindlilərin xahişi ilə həmin mahnını nota yazıb onlara bağışladım."*(T.Quliyev "Onun ilham mənbəyi" məqaləsi, "Ədəbiyyat və incəsənət" qəzeti, 27 may, 1967-ci il.)*

Onu da qeyd edək ki, "Sürəyya" mahnısı Rəşid Behbudovun ifasında İranda, Türkiyədə, Bolqarıstanda və b. ölkələrdə dəfələrlə ifa edilmiş və tamaşaçıların səmimi alqışları ilə qarşılanmışdır.

"Sürəyya" mahnısı S.Rüstəmovun Azərbaycan pambıqçısına həsr etdiyi yeganə mahnı deyil. 1950-ci illərin axırında və 1960-cı illərin əvvəllərində bəstəkar pambıqçıların əməksevərliyinə bir çox mahnılar da yazır. Bunlardan "Zəfərin sənin" (sözləri aşıq Pənah Pənahovundur), "Ağ çiçəklər" (sözləri H.Hüseynzadənindir), "Gümüş tellər" (sözləri İ.Səfərlinindir) və başqa mahnıları göstərmək olar.



"Sumqıyıt" mahnısı da xalq arasında tanınan mahnılardandır. Sözləri N.Cəfərovundur. Bu mahnı o vaxt üçün yeni sənaye şəhəri olan Sumqayıta həsr olunmuşdur. Melodiyası çox şəndir, bayram əhval-ruhiyyəsi yaradır. Mahnıda aşıq musiqisinin intonasiyalarını görmək olar. Mahnının "Şur" ladında yazılması da, aşıq musiqisinin xüsusiyyətlərini göstərir. Bundan əlavə, mahnıda marş ritmi də hiss olunur. Rəqs xarakterli mahnının nəqarəti də oynaqdır.

> ***Mahnı yazan bəstəkarlarımızdan söz düşəndə respublikanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Səid Rüstəmovun adı həmişə ön planda çəkilir. Onun şirin, lirik ,ürəyəyatımlı nəğmələri təkcə respublikamızda deyil, xarici ölkələrdə də ifa olunur, bəstəkara məşhurluq gətirir. S.Rüstəmovun bu sahədə böyük xidmətləri vardır.***

"Komsomol" rəşadətli gənclərimiz olan sovet dövrünün gənclərinə həsr edilmişdir. Sözləri T.Əyyubova məxsusdur. Gənclərin qəhrəman obrazları bu mahnıda təsvir edilmişdir. Mahnının ciddi, kəskin ritmi var. Oynaq, marş xarakterlidir.

"Mən sülhə səs verirəm" sülh uğrunda mübarizəyə həsr olunmuş mahnıdır. Ümumiyyətlə, "sülh uğrunda mübarizə" mövzusu müharibədən sonrakı illərdə bəstəkarların yaradıcılığında ən populyar mövzulardan biri sayılırdı. O dövr üçün aktual olan bu mövzuya S.Rüstəmovun da müraciət etməsi təbiidir. Mahnının sözləri H.Hüseynzadənindir. Mahnı mətninin əsasını təşkil edən sözlər-sülhün müdafiəsinə çağırış yüksək registrdə, ciddi, dəqiq ritmli, enerjili, həyəcanlı, lakin hərbi xarakterli melodiya ilə bir-birini tamamlayır.

S.Rüstəmovun mahnılarından danışarkən onun lirik, məhəbbət mövzusunda yazdığı mahnıları xüsusilə qeyd etmək lazımdır. Bəstəkar insan qəlbinin ən incə, ülvi hisslərini bu mahnılarda özünəməxsus tərzdə ifadə edir. Onların hər birinin öz melodiyası, ritmi, intonasiya xüsusiyyətləri var. Bunlar "Alagöz", "Oxu tar !", "Qurban adına", "Gəlmədin", "Getmə, getmə", "Hardasan?", "Bənövşə", "Həkim qız" və s. mahnılardır ki, onları Xan Şuşinski, Seyid Şuşinski, Bülbül, Gülağa Məmmədov, Həqiqət Rzayeva, Şövkət Ələkbərova kimi tanınmış müğənnilər öz repertuarlarına daxil etmişdilər.

"Alagöz" mahnısı şair Zeynal Cabbarzadənin sözlərinə yazılmışdır. Musiqisindəki məlahətlilik, sadəlik S.Rüstəmov melodiyasına xas olan oxunaqlıq, ifadəli intonasiyalar mahnıda şən əhval-ruhiyyə yaradır. Onu da qeyd edək ki, bu mahnı M.Hüseyn və İ.Əfəndiyevin "İntizar" pyesinə yazılmış musiqidəndir.

"Oxu tar!" mahnısının sözləri ölməz şairimiz Mikayıl Müşfiqə məxsusdur. Milli musiqimizi tərənnüm edən tarı şair Bakının, Gəncənin, Şirvanın, Şəkinin, Milin, Muğanın, Şuşanın, Naxçıvanın alovlu sənəti, şərəfi, şöhrəti adlandırır.

Həzin musiqisi ilə ürəkləri riqqətə gətirən bu mahnı "Bayatı-Şiraz" muğamının intonasiyaları əsasında yazılmışdır. Mahnının orta hissəsində həmin muğamdan bir hissə də verilir.

"Hardasan?" mahnısı (Sözləri T.Əyyubovundur) isə muğam havasını xatırladır. Ehtiraslı, həyacanlı melodiyası olan mahnıda improvizasiyadan istifadə olunmuşdur.

S.Rüstəmov dialoq xarakterli lirik mahnının da müəllifidir. Bu, sözləri H.Hüseynzadəyə məxsus olan "Dedim-dedi" lirik mahnısıdır. Burada gənc oğlan qıza öz sevqisini etiraf edir, onun melodiyası da həyəcanlı, get-gedə inkişaf edəndir. Qız isə oğlanın sevgisini rədd edir. Onun etinasırlığı bir musiqi ibarəsinin təkrarı ilə verilir.

S.Rüstəmovun "Ay qız", "Beşik mahnısı", "Gözlərin aydın olsun", "Ay gözəl", "Gözlərin", "Sənətkara aşıqəm" və s. lirik mahnıları melodiyasına, xarakterinə görə müxtəlifdir. Onlar bəstəkarın yorulmaz əməyinin bəhrəsidir. S.Rüstəmov mahnı yaradıcılığında uşaqların da maraqlarını nəzərə alaraq, onlar üçün bir sıra mahnı bəstələmişdir. Bəstəkar bu haqda yazır: "Azad və xoşbəxt uşaqlarımızın qaynar və mənalı həyatı musiqi bəstələmək üçün gözəl və zəngin mövzularla doludur. Əziz balalarımız üçün mahnılar bəstələmək mənim yaradıcılıq planımda özünə müəyyən yer tutur."1Səid Rüstəmov "Balalarımız üçün mahnılar" məqaləs, "Azərbaycan müəllimi" qəzeti, 1 iyun 1964-cü il.

Bu mahnılardan Mir Mehdi Seyidzadənin sözlərinə yazılmış "Kosmonavt", "Yağış", "Maral" və b. mahnıları H.Hüseynzadənin sözlərinə yazılmış "Ag kəpənək", "Bağçamız", "Anamı incitmərəm və s. mahnıları göstərmək olar.

S.Rüstəmovun müxtəlif mövzularda yazdığı mahnıların müəyyən qismi uzun illərdir ki, ümumtəhsil məktəblərində tədris olunur, gənc nəslin musiqi-estetik zövqünün formalaşmasında müsbət rol oynayır.

Bəstəkarın mahnı sahəsindəki nümunələri ondan sonra mahnı yazan bəstəkarlarımız - Tofiq Quliyev, Rauf Hacıyev, C.Cahangirov və V.Adıgözəlov üçün örnək olmuşdur.

S.Rüstəmovun musiqisi daim yaşayır. İllər keçdikcə onun mahnıları yaddaşlarda həkk olunur, həm professional musiqiçilər, həm də musiqisevərlər tərəfindən sevilir.

**Arzu Quliyeva**